

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 141 (21.802)

28 iyul 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura iclası keçirilib

***İclasda cari ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov məruzə edib.***

Bildirilib ki, Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında və dövlətçilik ənənələrinin qorunmasında həlledici qüvvəyə malik, alternativi olmayan siyasi partiyadır. Bu partiya 1992-ci ildə ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşən xalqın aparıcı və mütərəqqi qüvvələrinin istəyi ilə yaradılıb.

İsa Məmmədov qeyd edib ki, ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını inkişafın yeni mərhələsinə qovuşdurub. Bu siyasi yola sadiqliyin nəticəsidir ki, muxtar respublikada regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq abadlıq-quruculuq, yaşıllaşdırma işləri sürətlə aparılır, iqtisadiyyatımız yüksələn templə inkişaf etdirilir.



Ulu öndərin yadigarı olan Babək rayonu da günbəgün inkişaf edir, çiçəklənir, həyata keçirilən uğurlu infrastruktur layihələri hesabına bu yurd yerində əhalinin rahatlığı təmin olunur, məskunlaşma artır. Hazırda rayonun Payız kəndində kənd və xidmət mərkəzləri, məktəb binası, su dəyirmanı tikilir, körpü təmir olunur. Ucqar dağ və sərhəd kəndi olan Gərməçataqda kənd və xidmət mərkəzləri inşa olunur, məktəb yenidən qurulur. Rayonun Nehrəm kəndində isə XVIII əsrə aid olan tarixi "İmamzadə" türbəsi bərpa olunur, ətrafı abadlaşdırılır. Kəndin mərkəzində bayraq meydanı və sakinlərin asudə vaxtının səmərəli təşkili üçün istirahət parkı salınır. Bütün bu tədbirlər partiyamızın siyasi xəttinin bariz nümunəsidir.

Bildirilib ki, partiyanın rayon təşkilatı öz işini Yeni Azərbaycan Partiyası V Qurultayının və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi istiqamətində, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələblərinə uyğun qurub. Hesabat dövrü ərzində təsdiq olunmuş iş planına əsasən fəaliyyət davam etdirilib, ilk partiya təşkilatları ilə mütəmadi əlaqə saxlanılıb, onlara metodik köməkliklər göstərilib.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının əhatə etdiyi 55 ilk partiya təşkilatının 6835 nəfər üzvündən 3095-i gənc, 2822-si isə qadındır. Ötən 6 ay ərzində partiya sıralarına 66 nəfər qəbul edilib. Onlardan 46-sı gənc, 27-si isə qadındır. Bütövlükdə, hesabat dövrü ərzində Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında 2 şura, 6 idarə heyətinin yığıncağı keçirilib.

Sonra çıxışlar dinlənilib.

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı, şura üzvü Rasim Hüseynov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək görülmüş işləri müzakirə edib, qarşıya qoyulmuş vəzifələrdən danışıblar.

**Muxtar RZAZADƏ**

## Çinin "Huawei" şirkətində istehsalat təcrübəsini başa vuran tələbələrlə görüş



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən ali təhsil ocaqlarında "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə həyata keçirilir. Həmin proqram-layihə çərçivəsində Naxçıvandan olan 12 tələbə Çinin "Huawei" şirkətində istehsalat təcrübəsində olub.*

Dünən təcrübəni uğurla başa vuran tələbələrlə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində görüş keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini Rəşad Həsənov çıxış edərək bildirib ki, nazirlik ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasındakı əməkdaşlığın davamı olaraq muxtar respublikada "Gələcəyin İKT sahəsindəki toxumları" adlı ikinci proqram-layihə reallaşdırılıb. İyunun 1-də "Naxçıvan" Universitetində yay düşərgəsində iştirak edəcək tələbələrin seçim turu təşkil edilib. 40 tələbənin qatıldığı proqram-layihə çərçivəsində komissiya üzvləri informasiya-kommunikasiya texnologiyaları sahəsində hərtərəfli biliyə malik olan 12 ən yaxşı tələbəni seçiblər. İyul ayının 13-25 tarixlərində həmin tələbələr Çin Xalq Respublikasının "Huawei" şirkətinə istehsalat təcrübəsinə yollanıblar.

Qeyd edilib ki, proqram çərçivəsində əvvəlcə Pekində Çin mədəniyyəti ilə tanışlıq olub, "Çin səddi" və "Saray Muzey Kompleksi" tarixi yerləri ziyarət edilib, Çinin əyləncəli rəsm sərgisinə baxılıb. Sonra təcrübəçi tələbələr Şenjen şəhərinə yola düşüblər. Naxçıvanlı tələbələr "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən baş ofisinin Treninq Mərkəzində müasir texnologiyaların öyrənilməsi və istehsalı üzrə təlimlər keçiblər. İnformasiya-kommunikasiya texnologiyalarının daha təkmil öyrənilməsi məqsədi daşıyan təcrübə kursu şirkətin ayrı-ayrı peşəkar mütəxəssisləri tərəfindən aparılıb, tələbələrə sertifikatlar və hədiyyələr təqdim olunub.

İstehsalat təcrübəsi haqda slaydların nümayiş etdirildiyi görüşdə Çinin "Huawei" şirkətində təcrübə keçən tələbə heyətinin qrup rəhbəri Elvin Nəcəfov, Pərviz Babayev, Əhməd Heydərli, Fatma Həsənova və başqaları çıxış edərək göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə və təşkilatçılara minnətdarlıqlarını bildiriblər. Vurğulanıb ki, Çinin "Huawei" şirkəti ilə tanışlıq onlarda unudulmaz təəssürat yaradıb. Bu şirkətin ən müasir istehsal imkanlarına malik olduğunu qeyd edən tələbələr gələcək fəaliyyətlərində təşəbbüskar, çalışqan və məsuliyyətli olacaqlarını, dövlətimizin göstərdiyi qayğıya daha yaxşı təhsil almaqla cavab verəcəklərini bildiriblər.

Görüşdə Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək diqqətə çatdırıb ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı Sərəncam ilə ali təhsil ocaqlarının bir sıra ixtisasları muxtar respublikanın Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Nazirlik tərəfindən müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin təcrübə qazanmaları üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

"Huawei" şirkətinin Azərbaycandakı fəaliyyətinə 2002-ci ildə Naxçıvandan başladığını və ötən dövrdə yaxşı əlaqələrin qurulduğunu tələbələrin diqqətinə çatdıran Rövşən Məmmədov bildirib ki, əməkdaşlığın ən yüksək səviyyədə davam etdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində mümkün olub. Əminliklə demək olar ki, Çinin "Huawei" şirkətində istehsalat təcrübəsi keçən və sertifikat alan tələbələr bu təcrübədən layiqincə yararlanacaq, Naxçıvanın gələcək iqtisadi inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklər.

**✍ Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən kollegiya iclasında cari ilin ilk 6 ayı ərzində görülən işlərin nəticələri müzakirə olunub.***

## Fövqəladə Hallar Nazirliyində yarımilin yekunları müzakirə edilib



İclasda məruzə ilə çıxış edən fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev bildirib ki, bu ilin birinci yarısında muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan, xoşagəlməz hadisələrdən qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qanunvericiliyə uyğun tədbirlər görülüb, struktur bölmələrin daimi hazırlıq mərhələsində olmaları təmin edilib.

Qeyd edilib ki, hesabat dövründə istismara verilən 6 təhlükə potensiallı obyekt, 56 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınıb, 8 nəqliyyat vasitəsinə dövlət nömrə nişanı və qeydiyyat şəhadətnaməsi verilib. Bu dövrdə 145 ədəd nəqliyyat vasitəsinə texniki baxış keçirilib, 15 ədəd nəqliyyat vasitəsinin sığortalanması təmin edilib, 43 təhlükə potensiallı obyektdə əməli yoxlamalar aparılıb, 17 müəssisədə 109 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılıb. Altı müəssisədə maşın və mexanizmlər, avadanlıq və qurğular texniki təhlükəsizlik üzrə ekspertizadan keçirilib. Yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 2359 obyektdə yoxlama aparılıb, müxtəlif müəssisələrdə 7214 nəfərin iştirakı ilə maarifləndirici söhbətlər təşkil edilib. Həmçinin 125 ədəd kombayn, un dəyirmanları və yem anbarları texniki müayinədən keçirilib, taxıl biçini intensiv aparılan yerlərdə yanğın avtomobillərinin və motoxilasedicilərin növbətçiliyi təşkil olunub. Aparılan profilaktik tədbirlər nəticəsində baş vermiş yanğınların sayı ötən illə müqayisədə 33,3 faiz, dəymiş maddi ziyan isə 80,4 faiz azalıb.

Diqqətə çatdırılıb ki, şəxsi heyətin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də ciddi addımlar atılıb. Belə ki, bu il yanvar ayının 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin zabit-gizir ailələri üçün Naxçıvan şəhərində 48 mənzilli xidməti yaşayış binasının açılışı olub, 32 nəfər hər cür şəraitə malik mənzillərlə təmin edilib.

Sonra məruzə ətrafında nazirliyin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun, Xüsusi Riskli Xilasetmə Xidmətinin rəis əvəzi, polkovnik-leytenant Azadil Hüseynovun, Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Razim Vəliyevin, Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Tural Sadiqovun, Kəngərli Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Anar Həsənovun çıxışları olub.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev yekun vuraraq ilin ikinci yarısında da qarşıda duran vəzifələrin məsuliyyətlə icra edilməsinin vacibliyini qeyd edib.

**✍ Nail ƏSGƏROV**

## Kəngərli rayonunda növbəti məşğulluq tədbiri

***İyulun 27-də Kəngərli rayonunda növbəti əmək yarmarkası keçirilib.***

Tədbiri Kəngərli Rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açıb. Bildirib ki, muxtar respublikamızda həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır. Bu sahədə həyata keçirilən tədbirlər sakinlər tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıəddin Mehbalıyev çıxış edərək deyib ki, işaxtaran vətəndaşların, xüsusilə də gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bir sıra aktiv məşğulluq tədbirləri həyata keçirilir. Bu tədbirlər içərisində əmək yarmarkaları öz əhəmiyyəti ilə seçilir.

Qeyd olunub ki, əmək yarmarkaları işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılmasında və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

Vurğulanıb ki, muxtar respublikada, eləcə də Kəngərli rayonunda yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış olublar. 15 təşkilatdan 123 boş iş yerinin çıxarıldığı yarmarkada 25 nəfərə işə göndəriş verilib.

**✍ Gülcamal TAHİROVA**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2017-ci ilin birinci yarımilinin yekunları ilə bağlı keçirilən kollegiya iclasında komitənin sədri Ramilə Seyidova hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, muxtar respublikada yaşayan ailələr, qadınlar və uşaqlar haqqında məlumat bazası yenilənib, göstəricilər geniş təhlil edilib. Məlum olub ki, ailələrin sayında 1,06, qadınların sayında 1 və uşaqların sayında 1,06 faiz artım olub.***

Ramilə Seyidova qeyd edib ki, aztəminatlı ailələrin sosial problemlərinin həlli üçün aidiyyəti orqanlarla birlikdə müvafiq işlərin həyata keçirilməsi cari ildə də diqqət mərkəzində saxlanılıb, xüsusi qayğıya ehtiyacı olan aztəminatlı ailələrə baş çəkilib, onların problemlərinin aradan qaldırılması ilə bağlı işlər görülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar 650 nəfər sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan qadınlarla əlaqə saxlanılıb, 36 nəfər qadının müvafiq peşə kurslarına cəlb olunması üçün məlumatlar aidiyyəti təşkilatlara göndərilib.

Diqqətə çatdırılıb ki, qadınların özünüməşğulluğunun təmin edilməsi məqsədilə hesabat dövründə 3 dəfə istedadlı qadınların əl işlərinin sərgi-satışı təşkil olunub, sərgi-satışlarda və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında 165 istedadlı qadının 4856 manat dəyərində 714 əl işinin satışı həyata keçirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə adaptasiya olunmaları, inklüziv və inteqrasiyalı təhsilə cəlbi ilə əlaqədar 750 nəfər bu qəbildən olan uşağın valideynləri ilə əlaqə saxlanılıb. Uşaqların potensialına uyğun olaraq 29 uşaq məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrinə, reabilitasiya mərkəzinə göndərilib. Müvafiq kateqoriyadan olan uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət üçün 135 məktəbəqədər, məktəb, məktəbdənkənar müəssisələrdə monitorinqlər aparılıb, 3 dəfə sağlamlıq imkanları məhdud uşaqların valideynləri və müəllimləri arasında maarifləndirici görüşlər keçirilib.

Komitə sədri bildirib ki, sağlamlıq imkanları məhdud, eləcə də hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum uşaqların, aztəminatlı ailələrin uşaqlarının asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə onlar üçün teatr tamaşaları, animasiya və cizgi filmləri, konsert proqramları, tarixi və istirahət guşələrinə ekskursiyalar təşkil olunub. Həmçinin muxtar respublikada yaşayan hemofiliyalı və talassemiyalı uşaqlar üçün qanvermə aksiyası keçirilib.

2017-ci ilin 6 ayı ərzində komitə tərəfindən hər iki valideynini itirmiş 1 uşağın və övladlığa götürülmüş 3 uşağın ümumi uçotu aparılıb.

Qeyd olunub ki, cari ilin 6 ayı ərzində vətəndaşlar tərəfindən komitəyə 5 yazılı, 136 şifahi, elektron ünvanına isə 6 müraciət daxil olub. Bütün müraciətlərə qanunamüvafiq qaydada baxılıb.

İclasda komitənin sədr müavini Aytən Məmmədova, aparat rəhbəri Zeynal Hümbətov, şöbə müdirləri Sahir Rüstəmov və Vüsalə Vəliyeva çıxış ediblər.

Sonda kollegiya iclasına komitə sədri Ramilə Seyidova yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində də 2017-ci ilin ilk altı ayı ərzində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilib. Tədbirdə müəssisənin direktoru Behruz Əzimov məruzə ilə çıxış edib.***



Qeyd edilib ki, bəhs olunan dövr ərzində muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bir sıra məqsədyönlü tədbirlər həyata keçirib. Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikaya 40 min ton A-92 markalı benzin, 120 min ton dizel yanacağı, 20 min ton bitum, 11 min ton mazut, 1200 ton müxtəlif yağlar, 5 min ton maye qaz gətirilməsi nəzərdə tutulub. İlin ilk altı ayı ərzində muxtar respublikaya 15 min 8 ton A-92 markalı benzin, 40 min ton dizel yanacağı, 1483 ton bitum, 11 min ton mazut, 105 ton müxtəlif növ yağlar, 349 ton maye qaz gətirilib.

Bildirilib ki, alınan yanacaq muxtar respublikaya İran İslam Respublikasını keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları üzrə daşınır. 2017-ci ilin 6 ayında Gürcüstan-Türkiyə xətti ilə 7627 ton dizel yanacağı və 491,7 ton A-92 markalı avtobenzin, ümumilikdə, 8118,7 ton neft məhsulları, İran İslam Respublikasından keçməklə 31760,2 ton dizel yanacağı, 14497,3 ton A-92 markalı benzin, 1483,6 ton bitum, 11000 ton mazut, 349,9 ton maye qaz, 105,3 ton müxtəlif yağlar, ümumilikdə, 59146 ton neft məhsulları gətirilib.

Vurğulanıb ki, müəssisə 2017-ci ilin ilk 6 ayında ümumi dövriyyəsi 39 milyon 725 min manat olan 66117,5 ton müxtəlif növ neft məhsulları satıb ki, bu da 15733,2 ton avtobenzin, 38437,9 ton dizel yanacağı, 1483,6 ton bitum, 10034,5 ton mazut, 323 ton maye qaz, 105,3 ton müxtəlif növ yağlardan ibarətdir. 2017-ci ilin 6 ayında müəssisə satışdan 399,8 min manat mənfəət əldə edib.

Diqqətə çatdırılıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisəyə yanacaq daşıyan avtomaşınlar tam saz vəziyyətdədir. Yanacaq ehtiyatı yaradılıb.

Müəssisənin anbarlarında 1543,3 ton A-92 markalı benzin, 4758,4 ton dizel yanacağı, 129,8 ton maye qaz ehtiyatı vardır.

Sonra müəssisənin neft məhsulları anbarının müdiri Kazım Rzayev çıxış edib.

Yığıncağa Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin direktoru Behruz Əzimov yekun vurub.

**Muxtar MƏMMƏDOV**

*Taxıl elin sərvətidir*

## Gərgin zəhmət hesabına yetişdirilən məhsullar zəmilərdən toplanılır



***Ulularımız torpağa həmişə müqəddəs varlıq, ruzi, bərəkət yeri kimi baxıblar. Çünki bu qiymətli sərvət öz üzərində insan yaşayışı üçün lazım olan nemətləri yetirir. Taxıl isə bu nemətlərin şahıdır. Bəs torpaq nə vaxt gözəl olur, cazibədar görünür? Təbii ki, insan qayğısı görəndə, insan nəfəsi duyanda, yaşıl libası, gülzarlığı çox olanda, sinəsində büllur sular axanda, ən başlıcası isə qızılı sünbüllü taxıl ərsəyə gətirəndə...***

Bir vaxtlar cadar-cadar olan torpaqlar neçə illərdir ki, bərəkət xonçasını tutub. İndi muxtar respublikada, hər şeydən əvvəl, taxılın, çörəyin bolluğu yaradılıb. Artıq əhalinin çörəyə olan tələbatı yerli imkanlar hesabına ödənilir. Bunun üçün münbit şərait və möhkəm maddi-texniki baza vardır.

Ata-babalarımız həmişə bu müqəddəs nemətə üstünlük veriblər, taxıl, çörək bolluğu yaradıblar. Taxılı bol olan vətən basılmaz, – deyiblər. Lakin nə vaxt ki, insanlar torpaqdan uzaq düşüblər, müqəddəs nemətin əkilib-becərilməsinə laqeyd münasibət göstəriblər, onda qıtlıq yaranıb, əhalinin gün-güzəranı pisləşib.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri çoxumuzun yaxşı yadındadır. Bir parça çörək əldə etmək müşkül məsələyə çevrilmişdi. Çörək mağazalarında uzun növbələr vardı. Belə vaxtlarda hətta çörəyin çəkisi, keyfiyyəti də çoxlarını maraqlandırmırdı. Təki bir parça çörək olsun.

Bu gün fəxrlə demək olar ki, həmin çətin günlər arxada qalıb. Təkcə bir faktı qeyd edək ki, ötənilki mövsümdə muxtar respublikamızda 31579 hektar zəminin məhsulu biçilib, 94117 ton məhsul istehsal edilib. Bu da əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Bu il isə 31 min 632 hektar sahədən taxıl yığılır. Bunun da 22 min 268 hektarı buğda, 9 min 364 hektarı isə arpadır.

Məlumat üçün bildirək ki, bu il də taxıl tədarükü kampaniyasına hərtərəfli hazırlıq işləri aparılıb. Odur ki, biçin mütəşəkkil qaydada həyata keçirilir, fasilələrə yol verilmir. Taxıl biçini kampaniyasına 92 taxılbiçən kombayn, 125 lafet, 250 presvuran, 80 yükünüözüboşaldan avtomaşın saz vəziyyətə gətirilib. Həmin kombaynların 22-si "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə, 70-i isə fiziki və hüquqi şəxslərə məxsus texnikalardır. Taxıl biçinində iştirak edəcək kombaynların, maşın və mexanizmlərin ahəngdar işləməsini təmin etmək məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən zəruri ehtiyat hissələri də alınıb gətirilib. Bundan başqa, həmin texnikalar üçün lazım olan ehtiyat hissələr Naxçıvan şəhərindəki satış bazarı mağazalarında da mövcuddur.

Taxıl zəmilərində yanğın təhlükəsizliyi qaydalarına riayət olunması ilə bağlı kombaynçılar arasında maarifləndirmə tədbirləri də aparılıb, bütün kombaynlar yanğınsöndürmə balonları ilə təchiz edilib.

Bu gün muxtar respublikamızın bütün bölgələrində taxılın əkilib-becərilməsində mütərəqqi metodlara üstünlük verilir. Qədim əkinçilik diyarı olan Şərur rayonunda da bu istiqamətdə müvafiq işlər görülür. Ötən il Şərurda 7 min 637 hektar taxıl zəmisindən 24 min 117 ton məhsul tədarük edilib. Bu da hər hektardan orta hesabla 31,6 sentner məhsuldarlıq deməkdir. Bu il rayonda bol məhsul yetişdirilib. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon bazasının kollektivi taxıl biçinində mütəşəkkillik nümunəsi göstərir.



Babək rayonunun taxılçıları da min bir zəhmətlə zəmilərdə bol məhsul yetişdiriblər. Rayonun taxılçıları ötən il 9 min 167 hektar sahədən 28 min 587 ton məhsul əldə ediblər. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Babək rayon bazasının kollektivi də taxıl biçininə vaxtında hazırlıq işləri aparıb. Odur ki, bu rayonda elin varı, müqəddəs nemət olan taxıl həvəslə yığılır, bunkerlər dolub-boşaldıqca kəndlinin də üzü gülür. Məhsulun bolluğu isə iqtisadi səmərə deməkdir. Həm çörək bolluğu yaranır, həm də heyvandarlığın yem bazası təmin edilir.

Yarımca Babək rayonunda taxılçılıqla geniş şəkildə məşğul olan yaşayış məntəqələrindən biridir. Bu il kənddə 450 hektarda taxıl yetişdirilib. İndi əsas diqqət məhsulun vaxtında və itkisiz toplanmasına yönəldilib. Hələlik zəmilərə iki kombayn çıxarılıb. Hər hektardan orta hesabla 30 sentnerdən yuxarı sarı kəhrəba götürülür. Kənddə taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərindən biri Elsevər İsmayılovdur. Onun əldə etdiyi nəticə daha yüksəkdir. Belə ki, hər hektardan 35 sentner taxıl əldə edən mülkiyyətçi bunu son hədd hesab etmir. O, payızlıq taxıl əkini üçün indidən keyfiyyətli toxumluq material da tədarük edir. Məqsəd isə gələcəyin bol məhsulu üçün əsaslı zəmin yaratmaqdan ibarətdir.

Yarımca kəndində Arif Cəfərovu tərcübəli təsərrüfatçı kimi tanıyırlar. O, taxıl əkini sahələrini ilbəil genişləndirir, mütərəqqi metodlara üstünlük verməklə məhsuldarlığı artırır. Builki mövsümdə Arif Cəfərovun yetişdirdiyi 67 hektar taxıl sahəsindən məhsul yığır. Təcrübəli təsərrüfatçının əldə etdiyi nəticələr də sevindiricidir. Belə ki, o, hər hektardan orta hesabla 45 sentner sarı kəhrəba əldə edir.

Uzun illərdir ki, Hacıvar kəndində Darıdağ taxıl emalı müəssisəsi fəaliyyət göstərir. Bu müəssisənin səmərəli fəaliyyəti taxıl əkib-becərən insanların ürəyincədir. Belə ki, onlar istehsal etdikləri taxılı buraya gətirir, qısa müddətdə üyüdüb un halına salır, kəpəyindən isə yem kimi istifadə edirlər. Müəssisə taxıl qəbuluna tam hazır vəziyyətə gətirilib və qısa müddətdə burada 20 tondan artıq taxıl üyüdülüb.

54 yaşlı Hacıvar kənd sakini Telman Bayramov əvvəllər sürücü işləyib. Aqrar islahatlar həyata keçiriləndən sonra özünün ailə təsərrüfatını yaradıb. O, uzun illərdir ki, taxılçılıq, kartofçuluq, bostançılıq və tərəvəzçiliklə məşğul olur. Builki mövsümdə 5 hektar sahədə taxıl, 2 hektarda bostan məhsulları, 0,5 hektarda isə kartof yetişdirib. Becərmələr aqrotexniki qaydalar əsasında həyata keçirildiyindən məhsuldarlıq da yüksəkdir.

Bəli, bu gün muxtar respublikada taxıl biçini mütəşəkkil qaydada aparılır. Məlumat üçün bildirək ki, 24 iyul tarixə Şərur rayonunda 3516, Babəkdə 9697, Ordubadda 1439, Culfada 5028, Kəngərlidə 4001, Şahbuzda 802, Sədərəkdə 2168, Naxçıvan şəhərində 799 hektar sahənin məhsulu toplanılıb. Ən yüksək məhsuldarlıq Şərur rayonunda qeydə alınıb: 31,9 sentner.

*Taxılın bolluğu uğurla həyata keçirilən iqtisadi siyasətin nəticəsi, muxtar respublikamızda əhalinin gün-güzəranının yaxşılaşmasına səbəb olan amillərdəndir.*

**Məhəmməd FƏRƏCOV**
***Naxçıvan Dövlət Radiosunun baş redaktoru***

Turizm

# Kəngərli rayonunun turizm sahəsində potensial imkanları var

***Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən biri kimi geniş və sürətlə inkişaf edən iqtisadi sektordur. Onun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sahəni sosial-iqtisadi tərəqqidə aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafı diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sektorunun da inkişafına təsir edib, nəticədə, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmaqdadır.***



Təbii ki, muxtar respublikamızın turizm potensialının formalaşmasında hər bir bölgənin öz payı var. Naxçıvanın qədim tarixə, müasir infrastruktura malik Kəngərli rayonu da bu baxımdan istisna deyil. Muxtar respublikamızda infrastruktur quruculuğu istiqamətində həyata keçirilən tədbirlər bu rayonun da simasını gözəlləşdirib, yaşayış məntəqələri tamamilə abadlaşdırılıb, bütün istiqamətlərdə avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Görülən işlər rayonda yaşayan əhalinin rahatlığını təmin etməklə bərabər, burada turizmin müxtəlif növlərinin inkişaf etdirilməsinə də əlavə imkanlar yaradıb. Bəs bu gün Kəngərli rayonunda turizmin inkişaf etdirilməsi üçün potensial imkanlar nədən ibarətdir?

Əvvəlcə onu qeyd edək ki, hazırda ölkəmizin turizm sektorunda yeni trend kimi özünə maraq cəlb edən kənd turizmi Kəngərli rayonunun kənd yaşayış məntəqələri üçün də xarakterikdir. Belə ki, bu yaşayış məntəqələrində kompleks quruculuq tədbirlərinin aparılması, yolların abadlaşdırılması, yaşıllıq sahələrinin artırılması, ətraf mühitin təmizliyinin qorunması və sair işlərin görülməsi rayonun bütün kəndlərində bura yolu düşən qonaqların rahatlığını təmin etmək imkanına malikdir. Füsunkar təbiəti, qədim adət-ənənələri və tarixi-mədəni zənginlikləri ilə Kəngərli rayonunun kəndlərinin bu baxımdan lazımi potensialı vardır. Bu kəndlərdə yaşayan əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıq olduğundan gələn turistlərə ekoloji təmiz, yerli kənd təsərrüfatı məhsullarından hazırlanmış milli mətbəx nümunələri təqdim etmək, turistləri kənd sakinləri tərəfindən verilən kirayə evlərlə təmin etmək, maraq dairəsini nəzərə alaraq rayon daxilində müxtəlif gəzintilər təşkil etmək mümkündür. Bəs bu maraqlar nədən ibarət ola bilər?

Kəngərli rayonunun ərazisi çox qədim tarixə və mədəniyyətə malikdir. Rayon ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi-mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var. Bunlar qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar, türbələr və digər memarlıq abidələrindən ibarətdir. Bu baxımdan tarixi və mədəni turizmin inkişafı üçün rayon ərazisində lazımı imkanlar mövcuddur. Qarabağlar Türbə Kompleksi, Qıvraq məscidi, Qıvraq hamamı, Çalxanqala abidə divarları, Çalxanqala türbəsi, Şahtaxtı Govur qalası kimi tarixi-memarlıq abidələri tarixi və mədəni turizm həvəskarları üçün maraqlı sayıla bilər.

Məsələn, rayonun ən böyük yaşayış məntəqəsi sayılan Qarabağlar kəndi ilk olaraq qədim yaşayış məskəni kimi diqqət çəkir. Kəndin şimalındakı təpəlik ərazidə 40 hektar sahəni əhatə edən Qalacıq yaşayış məskəni Son Tunc və Dəmir dövrlərinə aiddir. Aparılan arxeoloji tədqiqatlardan sonra təsdiqlənib ki, Qalacıq bütün Qafqazda ilk dəfə ibtidai icma quruluşu dövrünə aid rast gəlinən möhtəşəm yaşayış yeridir. Bundan başqa, ölkə əhəmiyyətli arxeoloji abidə sayılan Qarabağlar yaşayış yeri XII-XVII əsrlərə aiddir. Ehtimallara görə, Qarabağlarda XVII əsrdə 50000 nəfərə qədər sakin yaşayıb. İlk sakinləri 4000 il əvvəl, yəni e.ə.II minilliyin başlanğıcında məhz həmin yerdə məskən salıblar. Orta əsrlərdə Azərbaycanın qədim və iri şəhərlərindən biri hesab edilib. Mühüm ictimai-iqtisadi, siyasi mərkəzlərdən biri olması məlumdur. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi edib. Şəhər Naxçıvanın ən qədim mədəniyyət mərkəzlərindən biri olub. Övliya Çələbi “Səyahətnamə” əsərində Qarabağlar kəndini belə təsvir edir: *“Bu şəhərin özülünü Mənüçöhr qoyub. Şəhər çox qədimdir. İndi Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. Əmir Teymur Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlaq salıb. Şəhər çox abaddır, ətrafında ucsuz-bucaqsız münbit düzənlik yerləşir. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə sayıblar. Şükür Allaha, bu şəhərdə iqlimin və suyun yaxşılığı bizim əhvalımızı qaydaya saldı. Deyilənlərə görə, burada bağı və üzümlükləri olan 10 minə qədər ev, 70 mehrab, minarəli 40 cami var. Karvansaray, hamam və bazarlar da çoxdur. Onların sayı artmaqda davam edir. Bura bolluq diyarıdır. Şəhərdə gəzərkən bir bağban bizə 25 çeşid dadlı armud gətirdi. Burada yaqut rəngli nar yetişir”.*

Orta əsr Azərbaycan memarlığının ən qiymətli yadigarlarından olan Qarabağlar Türbə Kompleksi isə nəinki kəndin, ümumilikdə, Kəngərli rayonunun tanınma simvolu kimi qiymətləndirilə bilər. Bu abidə kompleks şəklində olub, buraya türbə, qoşa minarə və bu iki abidənin arasında yerləşən dini binanın qalıqları daxildir. Sovetlər Birliyi zamanı bu türbəyə münasibət birmənalı olmayıb. Ötən əsrin 30-cu illərindən başlayaraq bir neçə dəfə türbənin sökülməsinə cəhd edilib, sonralar isə türbənin minarələrini yuxarı hissədən sökmək istəyiblər. Ancaq kənd camaatının etirazları və II Dünya müharibəsinin başlanması söküntünün təxirə salınmasına səbəb olub. Hazırda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən bu tarixi abidənin elmi əsaslarla bərpası davam etdirilir. Yaxın gələcəkdə abidə Kəngərli rayonuna turistlərin axınını daha da artıracaq.



Və yaxud götürək Şahtaxtı kəndindəki Şahtaxtı hamamını. Kənd ağsaqqallarının dediyinə görə, bu hamam kömür və ya odunla deyil, yalnız bircə şamla qızdırılıb. Rəvayətlərə görə, əsrlər öncə Şahtaxtı kəndindən dini təhsil almaq istəyən bir gəncin yolu İsfahana düşür və orada olduğu müddətdə XVII əsrin ən məşhur din xadimlərindən biri, ensiklopedik bilikli alim, türk əsilli Şeyx Bəhaəddin Əl Amili (Şeyx Bəhai) ilə tanış olmaq imkanı qazanır. Şeyx Bəhai həm də nüfuzlu dövlət xadimi Səfəvi hökmdarı Şah Abbasın sevimli vəziri olub. Onun dünyanı heyrətləndirən ixtiralarından olan, alimə böyük şöhrət gətirən və haqqında əfsanələr danışılan əsəri – İsfahandakı şam ilə isidilən hamam Şahtaxtıdan dini təhsil üçün yola düşən adamı daha çox maraqlandırır. Hamamın zirzəmisinə heç kim buraxılmır, ancaq həmin adam işçi kimi bir müddət cüzi bir miqdarda pul qarşılığında hamamda çalışmağa başlayır və imkan tapıb bu hamamın sirrini öyrənə bilir. Bundan bir müddət sonra həmin şəxs kəndə qayıdıb ruhani fəaliyyətlə məşğul olur, eyni zamanda İsfahanda gördüyü hamamın eynisini tikdirir. Çox keçmir ki, bu hamamın şan-şöhrəti ətrafa yayılır, qonşu ölkələrdən belə, bircə şamla yanan bu hamamın sirrini açmaq üçün gəlirlər. Hamam özünün ilkin quruluşunu və funksional xüsusiyyətlərini indi də qoruyub saxlayır. Bir çox yeraltı hamamlardan fərqli olaraq Şahtaxtı hamamı yarım yeraltı hamam sayılır. Son illər muxtar respublikamızda tarixi abidələrimizə göstərilən dövlət qayğısı milli mədəniyyət nümunələrimizdən olan hamam tikililərinin də bərpa edilməsinə şərait yaradıb. İndiyədək muxtar respublikamızda XVIII əsrə aid İsmayılxan hamamı, Ordubad rayonundakı qədim Şərq hamamı bərpa olunub. 2015-ci ildə isə Naxçıvan şəhərinin “Əlincə” məhəlləsində Şərq hamamı istifadəyə verilib. Muxtar respublikamızda milli ənənələrə sadiqlik Şahtaxtı hamamının da elmi əsaslarla bərpasına böyük inam yaradır. Bu isə Şahtaxtı kəndinin turizm imkanlarının daha da artmasına şərait yaradacaq.

Xatırladaq ki, Şahtaxtı kəndində Şahtaxtinskilərin ev-muzeyində artıq təmir işləri başa çatdırılıb. Bu isə ölkəmizin digər regionlarından bura yolu düşən qonaqlar üçün maraqlı obyektlərdən sayıla bilər. Bundan əlavə, 300 ilə yaxın yaşı olan Qıvraq məscidi, Tunc dövrünə aid, dövrümüzədək gəlib çatmış, divarlarının uzunluğu 450 metr, hündürlüyü 2,5-3 metr, eni 2,7-3 metr olan Çalxanqala yaşayış yeri, tarixi bizim eradan əvvəl III-I minilliyə aid Şahtaxtı Govur qalası və adını sadalamadığımız müxtəlif tarixi tikililər tarix və mədəni turizm həvəskarları üçün maraqlı abidələrdəndir.

Kəngərli rayonunun ərazisi, eyni zamanda dağ və piyada turizminin inkişafı üçün əlverişli coğrafi mövqeyə malikdir. Son illərdə dünya turizmində önəmli yerə sahib olmuş bu turizm növünün inkişaf etdirilməsində rayonun dağlıq və dağətəyi ərazilərindən lazımi şəkildə yararlanmaq, müxtəlif istiqamətlər üzrə hərəkət xəritələri hazırlamaq imkanlarını ortaya qoyur. Nəzərə alaq ki, rayon ərazisində, xüsusilə dağlıq ərazilərdə az və ya çoxhəcmliliyindən asılı olmayaraq, çoxsaylı su mənbələrinə rastlanması patikasevərlər (dağlıq ərazilərdə cığırla hərəkət edənlər) üçün xüsusi maraq kəsb edir. Bu cür hərəkət cədvəllərini digər rayonların əraziləri ilə də əlaqələndirmək mümkündür. Məsələn, Dərələyəz dağ silsiləsi boyunca Qarabağlar ərazisindəki Qalacıq yaşayış məskənindən Şərur rayonu istiqamətində Damlama, Dübək, Qazma mağarasınadək piyada və dağ turizmi turları təşkil etmək olar. Yəni bu turizm növünə üstünlük verənlərə maraqlı coğrafi relyeflə yanaşı, qədim yaşayış məskənlərini də təqdim etmək mümkündür.

*Sonda onu vurğulamaq lazımdır ki, muxtar respublikamızın hər bir bölgəsi kimi, Kəngərli rayonunun ərazisi də turizmin müxtəlif növlərinin inkişafı üçün potensial imkanlara malikdir.*

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan ərazisində Eneolit dövrünə aid yeni arxeoloji abidə aşkar olunub

***Son illər aparılan araşdırmalar zamanı Naxçıvan ərazisində Eneolit dövrünə aid xeyli yeni arxeoloji abidə aşkar olunub. Naxçıvan şəhəri yaxınlığındakı Uçan Ağıl və Uzunoba abidələrinin tədqiqi zamanı götürülən karbon analizlər onların eradan əvvəl V minilliyin birinci yarısına aid olduğunu göstərib. Bu baxımdan Naxçıvan şəhəri ərazisində, Naxçıvançayın sağ sahilində aşkar edilən yeni yaşayış yeri xüsusilə əhəmiyyətlidir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə Naxçıvan şəhəri ərazisində yerləşən Naxçıvan yaşayış yerində araşdırmalar bu il iyulun 10-da başlanıb. Hazırda tədqiqatlar davam edir. Yaşayış yerinin tədqiqi zamanı eramızdan əvvəl V minilliyin əvvəllərinə və birinci yarısına aid edilən maddi-mədəniyyət nümunələri qədim tariximizin dərindən öyrənilməsi baxımından əhəmiyyətlidir. Yaşayış yeri düzbucaqlı arxitektura ilə xarakterizə olunur. İlkin araşdırmalar mədəni təbəqənin 1,5-2 metr arasında olduğunu göstərir. Yaşayış yerindən tapılan Dalma Təpə tipli boyalı, dırnaq, barmaq və barmaq basqısı ilə naxışlanmış keramika diqqəti cəlb edir. Urmiya hövzəsində, Dalma Təpə yaşayış yerindən aşkar olunan Eneolit mədəniyyəti indiyədək izolyasiya edilmiş mədəniyyət sayılırdı və Cənubi Qafqazda aşkar olunmayıb. Yeni tapıntılar bu mədəniyyətin Azərbaycanda mövcudluğunu, Urmiya hövzəsi və Naxçıvanın qədim mədəniyyətlərinin ortaq özəllikləri malik olduğunu deməyə imkan verir.

Arxeoloji araşdırmalar göstərir ki, Cənubi Azərbaycan, o cümlədən Urmiya hövzəsindəki Eneolit abidələrində istifadə olunan obsidianın 95 faizi Naxçıvan yaxınlığındakı Sünik yatağından aparılıb. Kültəpə ətrafındakı Eneolit abidələrinin tədqiqi Naxçıvanda 60 faiz Göyçə, 30 faiz Sünik obsidianından istifadə olunduğunu təsdiq edir. Bu həm də Urmiya hövzəsi yaşayış yerlərinin obsidianla təmin edilməsi baxımından Naxçıvanın mühüm strateji nöqtə olduğunu göstərir. Hazırda aparılan araşdırmalar əsasında Eneolit yaşayış yerlərinin GPS koordinatları əsasında xəritələşdirilməsi qədim kommunikasiya xətlərini müəyyənləşdirməyə də imkan verib.

Qeyd edək ki, Azərbaycanda Şomutəpə və Kültəpə tipli abidələrin Neolit dövrünə aid edilməsi nəticəsində Son Neolit və Son Eneolit mədəniyyətləri arasında bir boşluq yaranmışdı. Naxçıvanda aşkar olunan abidələr bu boşluğu doldurmağa imkan verir.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü, Naxçıvan şəhər arxeoloji ekspedisiyasının rəisi*

## Şərur rayonunda *“Yay tətili uşaqların gözü ilə”* devizi altında festival təşkil edilib





***Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseydə Şərur Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə “Yay tətili uşaqların gözü ilə” devizi altında festival keçirilib.***

Məlumat verilib ki, “Yay tətili uşaqların gözü ilə” devizi altında keçirilən festivalda, o cümlədən muxtar respublika səviyyəli müsabiqələrdə Şərur rayonunun 12 ən yaxşı dərnək üzvü və 8 ən yaxşı dərnək rəhbəri diplomlara layiq görülüblər.

Diplomları qaliblərə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov təqdim ediblər.

Açıq səma altında təşkil olunan tədbirdə aparıcılar qeyd ediblər ki, muxtar respublikamızda uşaqların sağlam, bilikli, vətənpərvər böyüməsi üçün geniş imkanlar mövcuddur. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasətinin bölgədə uğurla həyata keçirilməsinin nəticəsidir ki, uşaqların hərtərəfli inkişafının təmin olunması, yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övladlar kimi böyüməsi daim diqqət mərkəzindədir. Belə ki, hər il muxtar respublikamızda ümumtəhsil müəssisələri üçün yeni binalar tikilir, məktəblərin maddi-texniki bazası möhkəmləndirilir, tədris ocaqları müasir informasiya texnologiyaları ilə təmin olunur, açıq və örtülü idman qurğuları yaradılır. Bunu Şərur rayonunun timsalında da aydın görmək olar. Son illər Şərur rayonunda 44 ümumtəhsil məktəbi, Fizika-Riyaziyyat Təmayüllü Lisey, Texniki-Peşə və Sürücülük Məktəbi, Uşaq-gənclər idman və şahmat məktəbləri üçün yeni binaların tikilməsi bunun bariz ifadəsidir. Rayonda fəaliyyət göstərən 6 məktəbdənkənar müəssisə də hərtərəfli qayğı əhatəsindədir.

Sonra rayon Təhsil Şöbəsinin əhatə etdiyi məktəbdənkənar müəssisələrə cəlb edilmiş istedadlı uşaqların hazırladıqları əl işləri – rəsm, toxuma, tikmə, dekorativ-tətbiqi sənət nümunələri nümayiş etdirilib, uşaqlardan ibarət yallı qruplarının çıxışları olub, bir-birindən maraqlı mahnılar, saz havaları səsləndirilib. Uşaq və yeniyetmələr şahmat taxtası arxasında yarışıblar, idman və bədii gimnastika bölmələrinin üzvləri bacarıqlarını nümayiş etdiriblər.

Yüzlərlə rayon sakininin tamaşa etdiyi festival beynəlxalq müsabiqələr laureatı olan Şərur Rayon Mədəniyyət Sarayının “Şərur qönçələri” uşaq yallı ansamblının çıxışı ilə başa çatıb.

**Elman MƏMMƏDOV**

## Təbii sərvətimiz olan meşələri yanğından qoruyaq



***Təbiətə gözəllik bəxş edən, oksigen mənbəyi olan meşələrin məhv olmasının əsas səbəblərindən biri də onun yanğınlara məruz qalmasıdır. Məhz buna görə insanların həyat fəaliyyətində mühüm rol oynayan meşələrin yanğından qorunması istiqamətində qabaqlayıcı tədbirlər görülür.***

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirlikləri ilə birgə tərtib edilmiş tədbirlər planına uyğun olaraq muxtar respublika ərazisində yerləşən meşələrdə və yeni salınmış yaşıllıq zolaqlarında vətəndaşlar tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl olunması məqsədilə maarifləndirmə və profilaktik tədbirlər həyata keçirilir. Həmçinin isti yay günlərində vətəndaşların istirahət üçün üz tutduqları məkanlardan biri olan Batabat meşəsində yanğın təhlükəsizliyi qaydalarına əməl olunması məqsədilə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin əməkdaşları tərəfindən gündəlik olaraq patrul xidmətləri təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi təbiətin əvəzsiz sərvəti olan meşələrin yanğınlardan qorunması üçün isti yay günlərində vətəndaşlara yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir. Cavabdeh şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və ona riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri yanğınsöndürmə texnikaları və vasitələrinin, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini daim yoxlamalı, mütəmadi olaraq işçilərlə yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə əlaqədar təlimlər keçirməlidirlər.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməlidirlər. Yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması məqsədilə tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.

Meşə sahələrindəki 10 yanğın hadisəsindən 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmasından baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, meşədə və ya meşəətrafı sahələrdə yandırılmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması kütləvi meşə yanğınlarına səbəb olur.

Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir. Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı kimi yanar mayelərə bulaşmış əsgi və digər materialları atmaq olmaz. Torf və bitki köklərinin yandırılması yanğın təhlükəsizliyi baxımından yolverilməzdir. İstirahət edən insanlar tərəfindən tullantıların və eləcə də şüşə qabların, şüşə qırıntılarının meşəyə atılması qadağandır. Əks halda Günəş şüasından təsirlənən şüşə qablar və onun qırıntıları yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaretin çəkilməsi, tonqal yandırılması təhlükəli olduğundan yolverilməzdir.

Havaların isti keçməsi meşələrin yanğın təhlükəsini daha da artırır, məhz buna görə cavabdeh şəxslər tərəfindən vaxtaşırı olaraq meşədaxili və ətraf sahələr yoxlanılmalı və daim diqqət mərkəzində saxlanılmalıdır. Yanğın baş verən zaman mövcud odsöndürücü vasitələrdən istifadə edilməlidir. Nəqliyyat vasitələri istifadəçiləri və digər vətəndaşlar tərəfindən siqaret qalığının yanılı vəziyyətdə yerə atılması meşə yanğınlarının baş verməsinə səbəb ola bilər. Hər bir vətəndaş bilməlidir ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etmək ölkəmizin iqtisadiyyatının inkişafına və vətəndaşlarımızın sağlamlığına xidmət deməkdir.

*Meşə zolaqlarında hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **“112”** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **“101”** nömrəli xidməti telefonlarına zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

***İyulun 27-də Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi Liseyə və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanı keçirib.***

## Heydər Əliyev adına Hərbi Liseyə və Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanları keçirilib



İmtahan Bakı və Naxçıvan şəhərlərində, ümumilikdə, 4 binada keçirilib, 1725 abituriyent iştirak edib. Onlardan 148 nəfəri Hərbi Tibb Məktəbinə, 1577 nəfəri isə hərbi liseylərə imtahan verib.

Bütün binalarda saat $11^{00}$- da başlanan və 2 saat davam edən imtahanın idarə olunmasına 12 imtahan rəhbəri, 132 nəzarətçi-müəllim cəlb edilib.

İmtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər Dövlət İmtahan Mərkəzinin internet saytına daxil olaraq “İmtahana buraxılış vərəqəsi”ni çap ediblər. Buraxılış vərəqəsi ilə yanaşı, onlara “Yaddaş kitabçası”ndan çıxarış da təqdim olunub. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar qeyd edilib.

Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin binasında keçirilən imtahanda 432 nəfər iştirak edib.

✍ **Fatma BABAYEVA**

## Səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir.***

Sertifikasiya Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əsasnaməsinə edilmiş əlavə və dəyişikliklər haqqında fərmanına uyğun olaraq həyata keçirilir. Məqsəd əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılmasından ibarətdir.

İyulun 24-dən start götürən sertifikasiya imtahanlarının növbəti mərhələsində orta tibb işçiləri üç gün ərzində bilik və bacarıqlarını sınayıblar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim olunub, eyni zamanda yazılı olmaqla müsahibə mərhələsinin də sualları paylanılıb. Cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə sual kartlarında imtahan verənin kod nömrəsi əksini tapıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalında üç saat davam edən imtahanın gedişinə imtahan-nəzarət komissiyası tərəfindən nəzarət olunub. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlarda 53 orta tibb işçisi iştirak edib. İmtahan suallarının test hissəsi üzrə 40 və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 16 və ya daha çox bal toplamış 27 orta tibb işçisi sertifikasiyadan keçərək 5 il müddətində müvafiq ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edib. 26 nəfər isə zəruri həddi keçə bilməyib. Sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə əldə edə bilməyən orta tibb işçiləri ixtisaslarına uyğun hazırlıq kurslarına cəlb olunacaqlar. Onlar altı ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikatlaşdırma imtahanlarında iştirak edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquq-mühafizə orqanlarının komandaları arasında peyntbol birinciliyinə yekun vurulub



***Naxçıvan Muxtar Respublikası hüquq-mühafizə orqanlarının komandaları arasında peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib.***

Naxçıvan Atıcılıq Mərkəzində təşkil edilən birincilikdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Gömrük Komitəsinin, Miqrasiya Xidmətinin, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin və Penitensiar Xidmətin komandaları mübarizə aparıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi birinciliyin qalibi adını Dövlət Gömrük Komitəsinin komandası qazanıb. Digər iki pillədə isə Naxçıvan Muxtar Respublikası Miqrasiya Xidməti və Prokurorluğunun komandaları qərarlaşıblar.

Sonda qalib komandalar təşkilatçılar tərəfindən diplomla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, “Qoçüstü” məhəlləsi, bina 1, mənzil 104-də yaşayan Əliyev Səbuhi Kamil oğlu və Tarverdiyeva Həcər Allahverdi qızının adına olan 6855 inventar nömrəli texniki pasport və MH-0044186 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 603